### ZƏFƏR YÜRÜŞÜNDƏN 5 İL ÖTÜR...

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*



*Elçin MEHRƏLİYEV,*
*yazıçı-publisist,*
*filologiya elmləri doktoru*

### 13. QARABAĞIN NÖVRAĞI

İndi Qarabağın büsbütün mənzərəsi yenidən dəyişir. Bərdədən başlamış üzü Ağdama, oradan Əsgərana, Xocalıya, Xankəndinə, Şuşaya, oradan da Laçına yol getdikcə gördüyümüz mənzərələr bizi heyrətə gətirir. Eyni vaxtda, yerin altında da, üstündə də qaynar iş gedir: nəhəng dağlar yarılır, tunellər çəkilir; köhnə, ensiz, dolama yolların əvəzinə enli, şüşə kimi hamar yollar salınır; enerji-kommunikasiya xətləri quraşdırılır; xarabalığa çevrilmiş yer-yurdlarımız erməni tör-töküntülərindən təmizlənir, tikilib abadlaşdırır; şəhidlərimizin qanı tökülən torpaqlar əkilib-becərilir, gülüstana çevrilir. Əlbəttə, bu işlərə qədər idarəetmə və təhlükəsizlik - minalardan təmizlənmə, həyat üçün təhlükə yaradan ekoloji pozuntuları aradan qaldırma, sərhəd və polis nəzarətini təşkil etmə, mülki hakimiyyət orqanlarının bərpası, avtomobil və dəmiryolu nəqliyyatı, hava limanlarının tikintisi və s. kimi məsələlər həyata keçirilmişdir. Hələ görüləcək işlər də çox böyükdür: regionun gələcək sosial-iqtisadi tərəqqisi üçün əlverişli mühit formalaşdırılmalıdır: su, elektrik, qaz təchizatı və kanalizasiya sistemləri bərpa edilməli, təhsil, səhiyyə, poçt-rabitə, bank-maliyyə, mədəniyyət, idman, telekommunikasiya, kompüterləşdirmə sistem və şəbəkələri ilə yanaşı, müxtəlif sənaye və kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti təmin edilməlidir. Daha neçə-neçə görüləsi işləri var Azərbaycanın. Belə baxanda, görülən və görüləcək işləri sadalamaq çox asandır, bir anlığa o işlərin hansı vəsaitlə, hansı işçi qüvvəsi və vasitələrlə başa çatdırılacağını düşündükdə isə başını tutub heyrətlənməyə bilmirsən.

Və bir də ona heyrətlənirsən ki, bir vaxtlar cavanlığına görə Qarabağı qaytara biləcəyinə şübhə etdiyimiz cənab Prezident, özünün dediyi kimi, "torpaqlarımızı düşməndən təmizləmək məqsədilə uzun illər nə qədər düşünülmüş, dəqiq, məqsədəuyğun, ardıcıl siyasət apararaq bir nöqtəyə vurmuşdur" ki, qələbəyə dərin inamla aidiyyatı dövlət qurumlarına, müvafiq elmi mərkəzlərə əvvəlcədən hazırlıq işləri görmək barədə də xüsusi tapşırıqlar verilmiş, azad ediləcək torpaqlarımıza yenidən can vermək, orada normal həyatı bərpa etmək və təsərrüfat fəaliyyətini dirçəltmək üçün bir sıra irimiqyaslı dövlət proqramları hazırlanmış, gələcək reabilitasiya işlərinin konturları cızılmışdır. Yurdlarımıza, torpaqlarımıza qayıdış istiqamətində görülən işlərin ardıcıl, sürətli və əhatəli şəkildə aparılması, bilavasitə, bununla əlaqədardır.

Qayıdış təntənəsi bizi bir tərəfdən heyrətləndirirsə, digər tərəfdən dövlətimizin gücü, qüdrəti ilə fəxr etməyə ruhlandırır. Sevinirsən və şükr edirsən ki, qaçqınlarımıza uzun illərin həsrətindən sonra doğma yurdlarına, obalarına qayıtmaq qisməti nəsib olur. Artıq "Böyük Qayıdış" proqramı çərçivəsində 60 mindən çox insan azad edilmiş torpaqlarında yaşayır, işləyir və təhsil alır. Köçürülmə prosesi mərhələlərlə davam etdirilir və aylar ötdükcə Laçında, Xocalıda, Xankəndində, Şuşada, Ağdərədə, Zəngilanda, Füzulidə həyat daha gur qaynayır.

Mən bu qaynarlığı Şuşada daha çox hiss etdim. Qalanın girəcəyindən tutmuş Cıdır düzünün axırına kimi gözlərində sevinc, heyrət və məhəbbət ifadələri cilvələnən insan seli axışır və mən 30 illik işğal dövründən sonra xalq kütlələrini ilk dəfə olaraq elliklə fərəhli, hamılıqla bəxtiyar görməyimə nə qədər məmnunam. Adamlar Azərbaycanın gözü, Qarabağın ürəyi qədim Şuşanı qarış-qarış gəzmək, gözəlliklərini görmək, ruhunu duymaq istəyirlər. Hara gedirsən növbədir, hamı Şuşanın tarixi yer-yurdlarına, abidələrinə - Cıdır düzünə, Şuşa mağarasına, Xəzinə qayasına, görməli-gəzməli yerləyinə - İsa Bulağına, Turşsuya, Daşaltı, Xəlfəli, Qarqar çayları boyunca sahil meşələrinə baş çəkmək istəyir... Cıdır düzünün günəş şüasında bərq vuran əlvanlığında baxışlarım Kirs dağının əzəmətli zirvəsinə tuşlansa da, fikrimdə böyük Mirzə Cəlilin Şuşa təsvirini xattırlayıram: "Axşamlar Şuşa şəhəri məqrib tərəfdən behişti xatırladır. Şvetsariyanı görənlər isə Şuşanı Şvetsariyaya oxşadırlar. "Çin yaylaqları" ilə Şuşanın "Xan sarayı" arasında oxşarlıq vardır. Mən isə cürət edib deyərdim ki, Şuşanın axşam çağı məqrib tərəfdən sehirgahı o qədərdir ki, bura insana ürək şadlığı verir, dünyanın az-az yerlərində bu cür səadət ələ düşə bilər."

Lakin eyni zamanda düşünürsən ki, yaxşı, erməni vandalları "gəldilər", çapıb-talayıb, dağıdıb viran qoyub "getdilər", bəs onların Azərbaycan xalqına, dövlətinə vurduğu yüz milyardlarla manatlıq ziyan niyə ödənilməsin? Təkcə bu bir Şuşanın yenidən tikilib-abadlaşdırılmasına görə nə qədər xərc çəkilib?! Eyni zamanda, müharibə qarmaqarışıqlığından istifadə edib yüz milyardlarla manatlıq talançılığa yol vermiş içimizdəki erməni xislətlilər (mən zərrəcə də şübhə etmirəm ki, onların həmin üzdəniraqlarla qan qohumluğu var, əks təqdirdə belə kəmfürsətliyə və çapolçuluğa yol verməzdilər) niyə xalqdan oğurladıqlarını gətirib tikinti-quruculuq işlərinə sərf etməsinlər? Əlbəttə, nə birincilərin, nə də ikincilərin bunu könüllü surətdə edə biləcəyini düşünəcək qədər sadəlövh deyiləmk. Hər iki tərəfi məcbur etmək lazımdır! Dövlət "dəmir yumruğunun" gücünü bu məqamda mütləq və mütləq göstərməlidir!

Başqa bir tərəfdən, nəyə görə "Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirilən tikinti-quruculuq işlərinə qaçqınlar cəlb edilmir? Təsdiq edilmiş layihələr üzrə fərdi evlərin tikintisinin könüllülük əsasında maliyyə dəstəyi göstərilməklə gələcək ev sahiblərinə həvalə edilməsi həm işin sürətinə, həm də dövlət büdcəsinə nə qədər kömək və təsir edərdi...

* * *

Bir vaxtlar el arasında "dünyanın ən varlı şəhəri" kimi ad çıxartmış, erməni özbaşınalığı müqabilində onlara yerini göstərməklə göz dağına çevrilmiş Ağdam isə ilk sakinlərini qəbul etməyə başlasa da, hələ tikilməkdə-qurulmaqdadır... İstər XX əsrin əvvəlləri erməni-müsəlman münaqişələri, istərsə də həmin əsrin sonlarında Qarabağ hadisələri başlayanda əsas ağırlıq bu şəhərin üzərinə düşmüş, o, erməni silahlı qüvvələrinin qarşısını kəsən güvəncli sədd, etibarlı istehkam, habelə düşmənin təhdid etdiyi Şuşa, Xocalı, Laçın və s. kimi yer-yurdlarımıza yeganə çıxış yolu, ümid körpüsü rolunu oynamışdır. 1980-ci illərin sonlarında Ermənistandan, sonralar isə Dağlıq Qarabağdan qovulan on minlərlə azərbaycanlının sığınacaq tapdığı bu qədim şəhər uzun müddət erməni silahlı qüvvələrinin hücumlarına sinə gərmiş, 1993-cü ilin iyulunda isə güclü artilleriya atəşləri nəticəsində əksər hissəsi məhv edilmiş və erməni vandalları tərəfindən işğal olunaraq büsbütün dağıdılmışdır. O boyda şəhər, demək olar ki, yer üzündən silinmişdir. Ağdamdan gözü qorxmuş ermənilər onu kökündən qazıyıb atmaq istəmişlər. Təsadüfi deyildir ki, 2008-ci ildə "Lonely Planet" jurnalı Ağdamı "Qafqaz Xirosiması" adlandırmış, 2010-cu ildə isə Əl-Cəzirənin internet nəşri Ağdamı "Ruhlar şəhəri" siyahısına salmışdır. Şəhərin viran edilməsi ilə bərabər, rayonun 129 kəndindən 85-i (ümumilikdə 846, 7 kv. km.-lik rayon ərazisinin 77, 4 faizi) işğal edilərək dağıdılmış, 158 min nəfərlik əhalisinin 130 min nəfəri qaçqın düşərək respublikanın 58 rayonunda məskunlaşmağa məcbur olmuşdur. İşğal zamanı bütün yaşayış evləri ilə yanaşı, rayondakı 3 texnikum, 2 peşə məktəbi, 72 ümumtəhsil məktəbi, 17 uşaq bağçası, 7 xəstəxana, 34 tibb məntəqəsi, 17 kənd həkim ambulatoriyası, 3 muzey, onlarla kitabxana, klub və s. dağıdılıb məhv edilmişdir. Ümumilikdə, şəxsi əmlaka 80 milyard, dövlət müəssisələrinə 167 milyard ziyan vurulmuşdur. Ağdamın müdafiəsi uğrunda 5 ildən artıq davam edən qanlı döyüşlərdə 5897 nəfər şəhid, 3531 nəfər isə əlil olmuşdur. 15 nəfər "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Atəşkəs dövründə torpaq həsrəti çəkməkdən, sosial şəraitin ağırlığı üzündən - kasadlıqdan, xəstəlikdən dünyasını dəyişən insanların sayı döyüşlərdə həlak olanların sayından xeyli çox olmuşdur.

Əgər 1993-cü il iyulun 23-ü Ağdamın işğal günü, 1920-ci il noyabrın 20-si isə Ağdamın işğaldan azadlığı günü kimi tarixə düşmüşdürsə, Qələbə günündən ötən illər yeni, daha möhtəşəm bir Ağdamın tikilib-qurulması hadisəsi kimi yaddaşlarda qalacaqdır. Planlaşdırmaya görə, yeni Ağdam ölkəmizin dördüncü böyük şəhəri olacaqdır. 2026-cı ilə qədər Ağdama 10 min nəfərin köçürülməsi, sonrakı illərdə isə şəhərin əhalisinin 100 minə çatdırılması nəzərdə tutulmuşdur. Bu möhtəşəm qayıdışın, bu möhtəşəm təntənənin doğurduğu sonsuz hiss-həyəcanı ağdamlı şairimiz Qulu Ağsəs belə nəzmə çəkir:

"Sən öl"ü, "sağ ol"u bəlli,
yaranandan üzü bəri
yasında Yasin oxunan,
toyunda tüfəng atılan -
şəhərim!
Dünyanı bazara çıxaran,
dünya bazarında satılan -
şəhərim!
Yuxarı başına keçən kafirə
yuxarıdan aşağı baxan,
Allahdan da çəkinməyən,
bircə əsarətdən qorxan!
Ağ alınlı qızılı atların vətəni,
seyid cəddinə içilən andların vətəni!
Sən dar gündə
Şuşaya arxa,
Xocalıya ümid oldun.
Son nəfəsəcən döyüşdün,
son nəfərəcən şəhid oldun...
Ağam şəhərim!
Adam şəhərim!
Ağdam şəhərim!
Şükür külünə,
şükür qayıdış gününə!
Sevincdən ağlımız çaşıb,
yüz min dəliynən gəlirik.
Bir "Uzundərə" havası çal,
çıx Bərdə yoluna -
Uzundərəynən gəlirik!..

*(Davamı 3-cü səhifədə)*

(Əvvəli 2-ci səhifədə)

Xarabalığa çevrilmiş şəhəri gəzib-dolaşdıqca sanki ucu-bucağı görünməyən tikinti-quruculuq meydanını gəzib seyr edirsən. Bir tərəfdə yollar çəkilir, o biri tərəfdə yaşayış evləri, mehmanxanalar tikilir, başqa bir tərəfdə inzibati binalar, təlim-tərbiyə, təhsil-tədris ocaqları ucaldılır, kommunikasiya xətləri quraşdırılır... Hara baxırsan iş qaynayır, haradan keçirsən tozdumana bürünmüş nəhəng maşınların nəriltisindən qulaq tutulur... İstər-istəməz böyük şairimiz Səməd Vurğunun "Muğam" poemasını xatırlayırsan:

Car çəkir, çarxların çaxnaşıq səsi,
Car çəkir, qışqırır nəhəng motorlar
Qızır baltaların polad pəncəsi,
İldırım, ildırım vurur Bozdağı,
O daşlı, qumsallı, gilli torpağı
Udur, lay-lay udur ekskovatorlar,
Hay salır, qışqırır nəhəng motorlar.

...Xatırlayırsan və düşünürsən ki, biz əzablı, ağrılı zamandan çıxıb, yeni, möhtəşəm bir tarix yaşayırıq. Gözümüzün önündə, qədim yurd yerlərimizdə ən müasir, dünyanı heyrətə gətirəcək yarlı-yaraşıqlı kəndlər, qəsəbələr, şəhərlər salınır, onların qan damarları - yüksək keyfiyyətli yollar çəkilir, qanadları - hava limanları açılır... Bu təmtarağı, eşqi, həvəsi duyub anladıqca adamın vab verərdim ki, ilk növbədə vətənpərvərlik duyğuları, milli qeyrət, milli məqsəd, milli ideya aydınlığı. Təsərrüfat və istehsalat həmişə, bütün dövrlərdə cəmiyyətin dayaq və inkişaf amilləri olub və buna müvafiq olaraq əmək adamının adı da həmişə hörmətlə çəkilib. Milli ideya və məqsədlər uğrunda mübarizə vüsət aldıqca, təsərrüfat və istehsalat işləri də vüsət alıb. Təsadüfi deyildir ki, zəhmətə, zəhmətkeşə yüksək dəyər vermək, bir-birindən maraqlı əməkçi insan obrazları yaratmaq milli ədəbiyyatımızın ən dəyərli ənənələrindən olmuşdur. Qədim "Kitabi-Dədə Qorqud" dastanındakı Qaraca Çobanı, Nizaminin "Xəmsə"sindəki şahlara həyat dərsi öyrədən əmək adamları obrazlarını, Mirzə Cəlil, Divanbəyoğlu, Abdulla Şaiq əsərlərindəki mənəvi-əxlaqi keyfiyyətləri ilə rəğbət doğuran əməkçi insan surətlərini xatırlayaq. Əbülhəsənin, Mehdi Hüseynin, Mir Cəlalın, Süleyman Rəhimovun, Mirzə İbrahimovun, Cəfər Cabbarlının , Səməd Vurğunun, İlyas Əfəndiyevin, Mövlud Süleymanovu, İsa Hüseynovun, İsmayıl Şıxlının, Sabir Əhmədovun, İsi Məlikzadənin, Fərman Kərimzadənin və s. kimi sənətkarlarımızın əmək mövzusunda yazdığı əsərlərin bu gün də maraqla oxunması, hesab edirik ki, həmin fikrin əyani sübutudur. Həmin əsərlər müxtəlif ictimai-siyasi dövrlərdə ilə yazıb-yaratmaq həvəsimizin üstünə həvəs gətirən Xudu Sadiq (Mustafayev) bəyənilən əsərləri qəzetdə dərc etdirərdi. Bəzən elə olurdu məclisin ayda bir dəfə xüsusi səhifəsi çıxırdı. O məqam bir ayrı məqam idi: hər dəfə çap olunanda elə bil dünyanı bizə verərdilər, sözə, mətbuata diqqət, hörmət yüksək idi. Kiçik bir şeirimə görə kəndimizdə məni nə qədər adam təbrik etmişdi, paytaxt qəzetlərində dərc edilən bir-iki abzaslıq yazılarımın sorağı ilə poçtalyon Çervon kişi ahıl yaşında qapımızacan gələr, uca boyu ilə mənə tərəf əyilib dəftərinə qol çəkdirər, qonorarımı verərdi.

Əlbəttə, biz romantik gənclik illərini yaşayırdıq, əsil şairliyə, yazıçılığa da hələ çox vardı, bu yolda kim özünü təsdiq edə biləcəkdi, kim yarıyolda büdrəyəcəkdi, bir Allah bilirdi, amma biz kövrək qanadlarımızla yaradıcılıq üfüqlərinə üz tutmuşduq. Bunu yazılarımızdan daha çox söhbətlərimizdə büruzə verərdik. Hər dəfə toplantıdan sonra şəhər parkında gəzişə-gəzişə istəkarzularımızdan, həyatdan, ədəbiyyatdan söz açardıq. Mikayıl Müşfiqdən, Səməd Vurğundan, Əli Kərimdən, Hüseyn Arifdən, Məmməd Arazdan, Bəxtiyar Vahabzadədən ... şeirlər deyərdik. Yaradıcılıqda möcüzə yaratmağın sirləri - sənətkarlıq texnologiyaları, bədii tapıntı-

Tapa bilməyəndə evinin yerin
Gözləri qan-yaşla dolandan danış.

Düşmənlər millətə min tələ qurub
Xalqın ürəyinə yaralar vurub
Dağılmış məzarın önündə durub
Ağlayıb saçını yolandan danış.

Küçələr bilinmir, dağılıb evlər
Ağaclar quruyub, solubdu güllər.
Haqqı danışmırsa lal olsun dillər
Bu yurdu bu günə salandan danış.

"Yaxşı şeirdir! Yerə-göyə sığmayan milli faciəmizin sarsıntılı yaşantısının poetik ifadəsidir. Səmimi və təsirlidir..." - deyə fikrimdəm keçirirəm...

Və fikrim yenə 70-ci illərə qayıdır. Qarışıq düşüncələr içində olsa da, Xudu müəllimi hörmətlə xatırlayıram. O, savadlı adam idi, orta məktəbi qızıl medalla, universiteti fərqlənmə diplomu ilə bitirmişdi, şeirləri, elmi və publisist yazıları ilə hətta respublika miqyasında tanınırdı. Bir insan kimi də səmimi, qayğıkeş idi, biz onun sirayətedici və ruhlandırıcı təsirini hiss edirdik. Elə o təsirlə də başqa peşələrin arxasınca getmək həvəsindən daşınıb sözsənət dünyasına üz tutduq. Aradan bir neçə il keçmiş Xudu müəllimlə Bakıda qarşılaşdıq, mərkəzi mətbuatda işləyirdi. Sonralar eşitdim ki, Qanlı 20 Yanvar hadisəsinə etiraz əlaməti olaraq vəzifəsindən və par-

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## Qarabağa qayıdış: xatirələr, duyğular, arzular

sinəsi qabarır və qulağından Azərbaycan Prezidentinin sözləri kəsilmir: "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır!" İstər-istəməz fərəh içində pıçıldayırsan: Yaşa, var ol, Azərbaycan! Sən qüdrətli xalq, qüdrətli dövlət deməksən, yaşa, var ol!

Və düşünürsən ki, büsbütün Qarabağın tikintisi, quruculuğu, abadlaşdırılması əsrin hadisəsi olacaqdır və bu möhtəşəm vəzifənin əsas ağırlığı əmək adamlarının - fəhlə, texnik, elektrik, mühəndis, inşaatçı və s. kimi qüvvələrin üzərinə düşür. Digər viran edilmiş kənd, qəsəbə və şəhərlərimiz kimi, Ağdam da bugünümüzün əcəmilərinin dərin zəkasından, fərhadlarının qadir əllərindən ucalır.

Bu günlərdə Azərbaycan Televiziyasının əməkdaşları Ağdamda tikinti-quruculuq işlərindən çəkiliş aparır, Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli, Xocavənd rayonlarında xüsusi nümayəndəsi Emin Hüseynovdan müsahibə götürürdülər. "Böyük Qayıdış" Proqramı çərçivəsində Ağdamda bərpa-quruculuq işlərinin sürətlə davam etdiyini, nəzərdə tutulan qrafik üzrə əhalinin yaşayış məntəqələrinə köç etməsi üçün zəruri tədbirlər həyata keçirildiyini bildirən E.Hüseynovun söhbət əsnasında işçi qüvvəsinin xüsusi bir səylə, fədakarcasına çalışmasını vurğulaması diqqəti çəkməyə bilmir. Bəs necə, əmək adamlarımız fədakarlıq göstərməsə bu qədər işin öhdəsindən gəlməkmi olar? Bəs onları fədakarlığa vadar edən nədir? Kim nə deyir desin, cavə şəraitdə yaranmasına baxmayaraq, əməyə fədakar münasibət rəğbətlə qələmə alınmış, coşğun əmək həyatı əlvan lövhələrlə təsvir edilmişdir. İstər-istəməz düşünürsən ki, bəs hanı bizim bu vüsətli, bu təmtəraqlı çağlarımızın salnaməçiləri? Hanı yeni qəhrəmanlıq dastanlarımız, coşqun əməyi ilhamla tərənnüm edən, fədakar əmək adamlarını sevgi hissləri ilə vəsf edən poemalarımız, şeirlərimiz?

* * *

Mənim Ağdam şəhərinə get-gəlim əsasən 9-cu sinifdə oxuduğum vaxtlardan başlanmışdı. Hər həftə avtobusa minib şəhərə gəlir, Ağdam rayon qəzetinin nəzdində fəaliyyət göstərən "Gənc qələmlər" ədəbi birliyinin məclislərində iştirak edirdim. Məni bura gətirən bədii yaradıcılığa həvəsim idi. Müzakirələrdə Həsən Qəhrəmanov, Qamboy Əliyev, Ziyəddin Sultanov, Eyvaz Zeynalov, Şamil Namazov, Vaqif Məmmədov, Ziyəddin Səlimov, Möhsün Hüseynov və başqaları iştirak edərdilər. Kimi rayonun kəndlərində, kimi də rayon mərkəzində yaşayırdı. Kimi işləyir, kimi orta məktəb məzunu, kimi də hələ məktəbli idi. Təzəcə yazdığımız bir neçə bəndlik şeirlərimizi, əlçim boyda hekayələrimizi oxuyar, müzakirə edər, nəyi bəyənib, nəyi bəyənmədiyimizi söyləyərdik. Ədəbi məclisin məşğələlərini aparan, asta, heysiyyatlı səsi, təbəssümü, qayğıkeş münasibəti lar barədə diskussiya aparardıq. Desəm ki, tamamilə qayğısızdıq, xəyalımız göylərdəydi, bu da düzgün olmaz. O vaxtın öz qayğıları vardı və bizə təsirsiz ötüşmürdü. Ayağımız yerdə, diqqətimiz cəmiyyətdə gedən proseslərdə idi və biz hərdən ölkə, rayon, kənd-kəsək problemlərindən də həyəcanla söz salardıq. Fəqət, sanki heç erməni düşmənçiliyi yox imiş kimi, bu barədə bir kəlmə də olsa danışmazdıq. "Sovet beynəlmiləlçiliyi" bizi tarixi həqiqətlərdən xəbərsiz qoymuşdu və biz sevimli Ağdamımızın nə vaxtsa erməni vandalları tərəfindən tarmar ediləcəyini heç xəyalımıza da gətirə bilməzdik...

Əl telefonum səs salır. Açıb baxıram, kəndçim, qohumum, dostum Əli Əhmədov nəsə səsli bir çəkiliş göndərib. Açıb baxıram, Ağdamın indiki görüntüləri fonunda kim isə şeir deyir - Ağdamın taleyindən bəhs edən bir şeir. Lap yerinə düşür:

Deyirsən, gedirəm Ağdamı görüm
Get orda gördüyün talandan danış.
Gələcək nəsillər qoy düzü bilsin
Sənə demirəm ki, yalandan danış.

Minlərlə şəhidlər can verib getdi
Nə qədər qazilər qan verib getdi
Onlar bizə şöhrət, şan verib getdi
Torpağı qaytarıb alandan danış.

O yerdə danışsan bil düşüncəni
Yersiz danışmağım görməzsən xeyrin

tiya biletindən imtina edib. İndi nə Xudu müəllim həyatdadır, nə də redaksiyanın yerləşdiyi binadan əsərəlamət var. Hər dəfə müzakirədən sonra söhbətləşə-söhbətləşə gəzdiyimiz böyük parkdan da bir nişanə qalmayıb. Biz arada qədim tarixə malik memarlıq və incəsənət abidələrinə - Hatəm Məlik qalasına, Xanoğlu türbəsinə, Pənah xanın imarətinə, Çay evinə və s. baş çəkərdik. Və əlbəttə ki, kəndə qayıtmaq üçün avtovağzala gedərkən yolüstü bazara dönüb buradakı dəmirçi sexində işləyən Mehralı əmimlə görüşərdim. İndi adlarını çəkdiyim ünvanların heç yolunu-yolağını tapmaq olmur. "Dünyanın ən varlı şəhəri" adını qazanmış Ağdam "Qafqaz Xirosiması"na çevrilmişdir. Erməni vandalları hətta nişamənc üçün bircə dənə də olsun köhnə ağac saxlamayıblar...

Əlbəttə, işğaldan azad edilən bütün rayonlarımızda ağaclar da əkilir, yeni yaşıllıq sahələri, parklar, güllüçiçəkli çəmənliklər də salınır, dövlət təbiət qoruqları da bərpa edilir və təbiətə, torpağa şəfaverici aksiyalardan mütləq mənim Güllücəmə də pay düşəcək. Güllücənin yovşanlı, cəngizli, yoncalı, gərəyanlı düzləri yenidən cana gələcək, nəfəsini günəşin ılıq nəfəsinə qatıb torpağı ətirləyəcək.

(Davamı 4-cü səhifədə)

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

*(Əvvəli 3-cü səhifədə)*

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*

Güllücənin də tikinti-quruculuq layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun təməlini qoymuşdur. Təsdiq edilmiş layihəyə görə ərazisi 388, 44 hektar olacaq. Kənddə 1042 fərdi ev inşa ediləcək, 3992 nəfər məskunlaşdırılacaq. Əlbəttə, digər yaşayış məntəqələrində olduğu kimi, mərhələlərlə. Bundan başqa, kənddə 500 nəfərə yaxın şagirdin oxuya biləcəyi məktəb binası (təsəvvür edirəm ki, o, necə gözəl olacaq və orada çalışacaq müəllimlər öz sələflərinin şərəfli pedaqoq yolunu necə ləyaqətlə davam etdirəcəklər), 120 yerlik uşaq baxçası, tibb məntəqəsi, klub-icma mərkəzi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, çoxfunksiyalı bina (poçt, bank filialı, ofis), mal-qara ferması, yanğınsöndürmə deposu, Bayraq meydanı, çörək sexi və s. inşa olunacaq. Burada həmçinin kənd təsərrüfatı texnikasını və maşınlarını təmir müəssisəsi, süd qəbulu və süd məhsulları istehsalı, quru meyvə istehsalı, ət kəsimi və qablaşdırılması sahələri, qarışıq yem istehsalı, barama tədarükü və qurdayırma məntəqələri, mineral gübrələr və kimyəvi maddələr anbarı, muzey, mehmanxana, xalça istehsalı sahəsi, işçi geyimlərinin istehsalı sahəsi, taxta taraların istehsalı sahəsi, dulusçuluq və suvenir istehsalı emalatxanası, bal qablaşdırılması sahəsi, üzüm emalı zavodu, şirniyyat sexi, taxıl anbarı, suvarmada istifadə olunan elektrik mühərriklərinin və avadanlıqlarının təmiri sahəsi, yanacaqdoldurma məntəqəsi də yaradılacaqdır. Bu işlərin miqyasını və nəticəsini düşünəndə xəyalım qanadlanır: Güllücə bizi 30 il əvvəlki kənd libasında deyil, şəhər tipli qəsəbəyə görkəmində qarşılayacaq.

Artıq ilk işlər görülüb. Yüksək voltlü lektrik xətti çəkilib. Azərsell qülləsi ucaldılıb. Mühəndis-inşaat qurğuları yerləşdirilir. İnşallah, yaxın vaxtlarda geniş miqyaslı tikinti-quruculuq işlərinə başlanar...O günə lap az qalır...

* * *

Facebookda həmkəndlim Oqtay Mustafayevin Güllücənin yenidən tikilib-qurulması ilə bağlı irəli sürdüyü təkliflərlə tanış oldum. O, yazırdı ki: - yeni kəndimizin inkişaf, genişlənmə perspektivi torpaq, hava, bitki örtüyünün daha yaxşı olduğu yuxarı - Qarapirim kəndi istiqamətində nəzərdə tutulsun;

- hava axınının həmişə Murov dağı səmtdən olduğunu nəzərə alaraq kəndin küçələrini Murov dağı istiqamətinə perpendikulyar salmaq, bu, hava axınının kəndin hər guşəsinə rahat daxil olmasına səbəb olar;

- keçmiş Güllücədə bütün evlərin qapıları gündoğana açılırdı, yəqin ki, burda bir hikmət vardı və yeni salınacaq kəndimizdə də qapıların gündoğana açılmasını təklif edirəm.

Hesab edirəm ki, bu kimi təklifləri öyrənib nəzərə almağın ancaq faydası ola bilər və öz tərəfimdən də bir neçə təklif bildirirəm:

- Təcili olaraq Ağdam şəhərində "Qarabağ Elmi-Analitik İnformasiya Mərkəzi" yaradılsın. Bu mərkəz Qarabağın qurulub-dirçəldilməsi və bütün istiqamətlərdə inkişafı ilə əlaqədar aidiyyəti təşkilat və müəssisələrlə çalışacaq, informativ fakt və məlumatları toplayıb yayacaq, təhlil edəcək, gələcəyə yönəli proqnozlar hazırlayacaq işlək bir mexanizm olmalıdır. Onun əsasən elmi jurnalistikanı təmsil edəcək yığcam redaksiya heyəti müəyyənləşdirilməli, televiziya kanalı, mətbəəsi və nəşrləri olmalıdır. Mərkəzin nəşrləri, verilişləri bir neçə dildə təşkil edilməli, həm respublikamızda, həm də xaricdə yayılması təmin olunmalıdır.

- "Qarabağ" adlı qəzetin işçi və maddi bazası əsasında, redaksiya Ağdam şəhərinə köçürülməklə, fəaliyyəti yenidən təmin edilsin.

- Güllücənin, eləcə də viran edilmiş yurdlarımızın bir parçası indiki halında - "açıq muzey" kimi qorunub saxlanılsın. Hesab edirəm ki, bu, tarixin acı eksponatı kimi milli faciələrimizi unutmamağa və neofaşizmə qarşı mübarizəyə səsləyəcək bir vasitə olacaqdır. Yaxşı olardı ki, həmin viranəlik parçası tarix-diyarşünaslıq muzeyinin düz yanında, onun canlı bir hissəsi kimi düşünülsün və hər dəfə oranın qapısı açılanda insanları milli birliyə səsləyən müvafiq bir şeir, yaxud marş tipli mahnı səslənsin.

- Bu yerlərin adamları zəhmətkeşdir, ağlım kəsəndən onları gün doğmamışdan şər qarışana qədər işləyib-çalışan görmüşəm. Əgər yer-yurd planlaşdırma xəritəsi artıq məlumdursa və təsərrüfat sahələri yaratmağa imkan verirsə, elə indidən, vaxt itirmədən kənd təsərrüfatını dirçəltməyə təkan verəcək stimullaşdırıcı amillər işə salınsın, torpaqlar ədalətlə özəlləşdirilsin, məqsədli vəsaitlərin, güzəştli kreditlərin şəffaf şəkildə ayrılması təmin edilsin. Bir var, əhali köçəndən sonra təsərrüfat yaratmaq barədə düşünsün, bir də var əhali köçənə qədər təsərrüfat sahələri yaradılsın. Biz onsuz da 30 il vaxt itirmişik, vaxt isə hər şey deməkdir.

- Qarabağ suvenirləri istehsalına başlanılsın. Bu suvenirlər yer-yurdlarımızın gözəlliklərini, tarixi abidələrimizin möhtəşəmliyini əks etdirən simvollar kimi evlərimizi bəzəsin, qonaq-qaraya bağışlansın, xarici ölkələrə gedənlər tərəfindən təzə dost-tanışlara hədiyyə verilsin, Azərbaycanlı və Qarabağlı olduğumuzu tanıtmaq vasitəsinə çevrilsin.

- Ağdam vaxtilə həm də bazarının zənginliyi ilə tanınıb ad çıxartmışdı, şair Qulu Ağsəs demiş, dünyanı bazarına çıxaran şəhər idi. Hesab edirəm ki, aran Qarabağla dağ Qarabağ arasında tutduğu coğrafi yerinə və yol-nəqliyyat imkanlarına görə yenə də respublikamızın ən böyük yarmarkalarından birinin orada açılması faydalı olardı. Burada ətraf rayonların iş adamları şərabçılıq, heyvandarlıq, taxılçılıq, arıçılıq, toxuculuq, dulusçuluq, dəmirçilik və s. kimi kənd təsərrüfatı məhsullarının, sənaye və yüngül sənaye məhsullarının alış-verişini təşkil etmək imkanı əldə etmiş olardılar.

- Güllücədə, əlbəttə ki, şirə çəkmə və meyvə qurutma sexlərindən ibarət meyvə tədarükü və qablaşdırma sahəsi də yaradılmalıdır. Ən azı səkkiz parakəndin məhsulu oraya daşınıb, tədarük edilə bilər. Güllücə və Nəmirli inzibati ərazilərinin torpaqları həm də meyvəçilik üçün əvəzsiz torpaqlardır.

* * *

Amma hələ ki, ölü zonadayıq. Dirçəliş əlamətləri xarabalıqla müqayisədə qurumuş ağacın kökündən zoğ verən pöhrəyə bənzəsə də, adama ümid verir. Kəndin sakit səmasında yenidən quşlar uçur, boy atan ağaclarda yuva qurur, budaqlarına qonub nəğmə oxuyur. Sanki qələbədən ötən 5 il ərzində möcüzə baş verib: nar, əncir, çəkil, tut, çinar, qovaq ağacları kökündən yenidən boy verməyə başlayıblar. Səhliyalının dediyi ilə necə razılaşmayasan: "Ağdam işğaldan azad ediləndən on gün sonra, kənd adamları içində ən birinci, mən gəlmişəm Güllücəyə. Ağac adında əsər-əlamət yox idi. Elə bil bir vaxtlar onları əkib-becərələrin iyini alıb boy verdilər"...

Hatəm isə Qabartı körpüsünün yaxınlığında cır nar kollarından, ləl-cəvahirat yığırmış kimi, nar dərib heyranlıqla deyir:

- Şükür, gəlib Miri bağından nar yığdıq!

- Yuxarılara yazacam ki, buralarda bir turş nar şirəsi istehsal edən sex də quraşdırsınlar.

- Sən zarafat elə...

- Zarafat niyə? Səndən heç nə istəmir, səni heç bir xərc-xəsarətə salmır, necə deyərlər, dən vermirsən, su vermirsən, eləcə yığ, şirəsini çək. Yüz tonlarla nar var bu düzlərdə.

Gördüyümüz mənzərə, eşitdiyimiz sözlər bir daha təsdiq edir ki, həyat eşqini öldürmək, yer üzündən silmək mümkün deyil, həyatla ölüm arasındakı mübarizədə son nəticədə həyat qalib gəlir. Mən torpağımızın ağaclarını çətinliyə dözüm, həyat uğrunda mübarizə, sevgiyə sədaqət simvolu kimi qəribə duyğularla müşahidə edirəm.

Dayandığımız yerdən bir qədər qabaqda Suma kəndinin xarabalıqları görünür. Suma deyəndə, ilk növbədə, Qarabağın ünlü seyidlərindən olmuş Seyid Fuğara yada düşür. Bir vaxtlar Xaçın çayının üstündəki ocağına ətaf eil-obadan, hətta uzaq yerlərdən iman gətirərdilər. Rəhmətlik Gülöyşə nənəm, qonşuluqda yaşayan rəhmətlik Süreyya xala uşaq vaxtı məni də yanlarına alıb bu ocağa gətirmişdilər. Dərdə, xəstəliyə düçar olanlar, ağır çətinliklə üzləşənlər, muradına hasil olmağı diləyənlər bu ocağa nəzir deyərdilər. Belə söyləyərdilər ki, Seyid Fuğara nəzir adına verilən bahalı hədiyyələri qəbul etməz, cüzi nəzir götürər, onun da bir hissəsini kasıblara paylayarmış. Seyid Fuğara bir neçə dəfə də bizim evə gəlmişdi. Gödəkboy, dolubədən, göygöz, saqqallı, nurlusifət bir kişi idi. Dəfələrlə əlindəki çəliklə çiyinlərimə vurub, üzümə üfürüb, "Ceddim sənə kömək olsun!" - demişdi. Vandallar onun ziyarətgahını da dağıdıblar.

Mən Sumaya tez-tez gedərdim. Atamın dayısı Salman kişinin oğlu Əli Mustafayevin, atamın ögey qardaşı Sultan əminin evlərində hörmətlə qarşılanar, dadlı təamlara qonaq edilərdim. Sonralar, Bakıda işləyəndə Niyaz Xəlilovla, Akif Əliyevlə, Zal İbrahimovla, qardaşı Rəhmanla dostlaşdıq. Xeyirdə-şərdə bir yerdə olardıq, xoş günümüzdə gəzintilərə çıxar, çətində bir-birimizə dayaq durardıq. Zaman bizim sıramıza da əl gəzdirdi, elimizin-obamızın zənginliyini özündə təcəssüm etdirən insanları bir-birindən ayrı saldı. Salamat qalanlarımız yenə bir-birini soraqlayır, hal-əhval tutur, sevincini, dərdini bölüşür. Bayaqdan fikrimdə dolaşır ki, Niyaz müəllimə zəng vurum, kəndə gəldiyimi, turş narın yetişdiyini xəbər verim...

* * *

Doğma yurddan ayrılmaq vaxtıdır... Amma sanki bu "ölü zona"nın da bir maqnit qüvvəsi var - bizi buraxmaq istəmir, üzü Sumaya tərəf ayaqlarımızı sürüyə-sürüyə gedirik...

Arada ayaq saxlayıb, arxaya boylanır, yenə ürəyimdə pıçıldayıram: "Gözün aydın, Güllücəm! Darıxma, lap az qalıb, yenidən daş-daş əkilib yurda dönəcəksən... Yenidən daşların kök atıb bar gətirəcək, yenidən qazanacaq və firəvan həyat yaşayacaqsan! Bol-bəhrəli torpağının üzü güləcək, düzlərin, dərələrin ətir qoxuyacaq... Yaşıllığa bürünüb gözəlləşəcəksən... Bağında bənövşələr açacaq, baxçanda bülbüllər cəh-cəh vuracaq, səmanda göyərçinlər süzəcək... Eyvanında qaranquşlar yuva quracaq, pəncərəndə sevgili qumrular oxuyacaq... Hər ürəkdə neçə-neçə arzu, dilək baş qaldıracaq, yenə qızlarına elçi gediləcək, yenə oğlan evində məğar qurulacaq, Murov yeli el şənliklərinin sədasını Bakıyacan yayacaq. Adət-ənənələrin yenidən ayaq tutacaq, süfrən yenə qonaqlı-qaralı olacaq...

- Niyə dayanmısan? Elə bil kimənsə danışırsan?

Hatəmin səsinə ona tərəf çevrilirəm və fikirli-fikirli:

- Hə, deyəsən özümlə danışıram... - deyirəm.

- Darıxma, lap az qalıb. Allah qoysa, yığışıb birdəfəlik gələrik!" - bunu da ürəyimdən keçənləri duymuş kimi, Hatəm deyir mənə...

*2025*